BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2015*

UOT 94 "16/18"

# "MOSKVA BƏYANNAMƏSİ": BAXIŞLAR VƏ MÖVQELƏR

**İSMAYIL MUSA**
***Bakı Dövlət Universiteti***
***Ismayil_musa@rambler.ru***

*Məqalədə Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı 2008-ci ilin noyabrında imzaladıqları "Moskva Bəyannaməsi" araşdırılır. Öncəliklə bəyannamənin başlıca məqamları açıqlanır. Əsas diqqət isə həmin sənədə dair elmi-siyasi baxışlar və mövqelərin müqayisəli təhlilinə yönəldilir.*

**Açar sözlər: "**Moskva Bəyannaməsi", Dağlıq Qarabağ münaqişəsi, problemin həlli, üçtərəfli müzakirələr, elmi yanaşmalar və dəyərləndirmələr

**Üçgünlük (31.X-2.XI.2008) Moskva danışıqları** hissələrlə və müxtəlif müstəvilərdə aparılıbdır (1). Öncə Xarici İşlər nazirlərinin üçlükdə və sonra isə həmsədrlərin də iştirakı ilə birgə müzakirələri keçirilibdir (ardınca həmsədrlərin nazirlərlə birgə görüşlərinin olub-olmaması mübahisəlidir). Sonda isə prezidentlərin (nazirlərsiz və həmsədrlərsiz) "Moskva Bəyannaməsi" (2,86) ilə yekunlaşan danışıqları olubdur.

"3+3", yəni prezidentlər + həmsədrlər formatında keçirilməyən **"Mayndorff danışıqları",** AR XİN-in açıqlamasına görə, ATƏT-in sənədləri (Madrid təkliflər paketi) əsasında aparılmışdır. **Danışıqların başlıca fərqli cəhəti və yekunu** təxminən 15 ilə yaxın davam edən sülh prosesində ilk dəfə olaraq münaqişə tərəfləri arasında birgə rəsmi sənədin imzalanmasından ibarətdir. Həmin sənədin **("Qarabağ Bəyannaməsi"nin) əsas məqamlarını** tezisvari şəkildə aşağıdakı kimi ifadə etmək olar:

- münaqişənin dinc (siyasi) yolla həlli;
- nizamlamanın bütün mərhələ və səpkilərinin beynəlxalq hüquqi təminatı;
- açıq mətnlə yazılmasa da, Madrid təkliflər paketi-prinsiplərinin nəzərə alınmasının vurğulanması;
- tərəflərarası qarşılıqlı etimadın möhkəmləndirilməsinə yönəlik səylərin gerçəkləşməsi üçün şəraitin yaradılması və s.

**"Moskva Bəyannaməsi"** istər Azərbaycanda, istərsə də Ermənistanda, habelə Rusiya və Qərbdə müxtəlif yönlərdənsəciyyələndirilmişdir**. Azərbaycan rəsmiləri** sənədi ümumilikdə müsbət dəyərləndirdilər (3). Prezident İlham Əliyev "Rossiya" telekanalının "Formula vlasti" ("Hakimiyyət formulu") proq-

ramına müsahibəsində (II.2009) bəyannamənin, münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini nəzərdə tutduğunu və konfliktin həllinin tapılması imkanının mümkünlüyü fikrini söyləmişdi (4). Baş diplomatımız E.Məmmədyarov da danışıqlardan sonra erməni jurnalistlərinin sualına cavabında "öz müqəddəratını təyinetmə hüququ ərazi bütövlüyünə hərbi müdaxilə yolu ilə gerçəkləşdirilə bilməz müddəasını önə çəkmişdi" (1). O, habelə DQ-nin erməni icmasının münaqişə (danışıqlar) tərəfi kimi tanınmasını mümkünsüz saymışdı.

**Azərbaycanın siyasət adamlarının (partiya liderləri və b.), politoloq-ekspertlərinin "Moskva Bəyannaməsi"nə münasibəti fərqlidir:** "kifayət qədər təhlükəli (İ.Qəmbər); "müsbət siyasi addım səciyyəli, ancaq münaqişənin həllində yeni mərhələnin başlanğıcı sayıla bilməyən"(A.Mütəllibov); "problemin həlli demək olmayan, amma Rusiyanı sülhdə maraqlı tərəf kimi göstərən" (Y.Məmmədov)"; "boş kağız parçası olan" (V.Quluzadə); "xoş məramdan xəbər verməyən" (A.Yunus); "heç bir hüquqi nəticə yaratmayan" (R.Musabəyov); "tərəflərin üzərinə heç bir öhdəlik qoymayan" (Ə.Oruclu); "ümumi sözlərdən ibarət, hər hansı yeniliyi olmayan" (Ə.Kərimli) sənəd və s. Bu fikirlərin arxasında dayanan izah-dəlillər də yetərincə maraqlı və düşündürücüdür.

**"Qarabağ Bəyannaməsi"ni Azərbaycan üçün təhlükəli hesab edənlərin mülahizə və dəlilləri** bunlardır: Moskvada "əldə olunan" heç bir razılıq Azərbaycanın xeyrinə ola bilməz; rus imperiyası çökməyənədək münaqişənin həllində heç bir irəliləyiş gözlənilmir; Kremlin nizamlama təşəbbüsünü tam ələ keçirməyə yaxınlaşması; onun "qarant"olaraq sülhməramlı qüvvələr adı altında öz qoşunlarını bölgədə yerləşdirmək imkanı qazanması; Madrid prinsipləri əsas tutulduğundan referendum perspektivi; münaqişənin həlli variantı kimi yeni müharibəyə yol verilə bilməməsi; Rusiyanın Ermənistana "bir addım da geriyə yox" göstərişi; işğal faktının və BMT-nin məlum qətnamələrinin adının belə çəkilməməsi; "Madrid sənədi"ni dəstəkləyən Moskva ilə Vaşinqtonun uzlaşma ehtimalı; təslimçi sülhə yol açılması; münaqişənin sırf diplomatik-siyasi-dinc yolla həlli öhdəliyi; Rusiyanın Azərbaycana qurduğu tələ (sülhməramlı qüvvələr adı altında bölgəyə öz qoşununu yerləşdirmək və bu kimi digər hallar).

**Bəyannamə ilə bağlı digər yanaşma və təkliflərin müəlliflərinin önə çəkdiyi məqamlar-dəlillər** isə aşağıdakılardan ibarətdir: "nə hərb, nə sülh" vəziyyətinin qarantı olan Rusiyanın regionda Qərbə (ABŞ və Aİ-yə) "nüfuz (güc) nümayişi";münaqişənin hərbi yolla həllinin istisnasının erməniləri qane etməsi; Moskva danışıqlarının əməli (real) nəticəsizliyinin gözəgörünən pərdələnməsi; "mərhələli həll" planının müzakirəsi; Kremllə Ağ Evin "hərəyə bir muncuq" siyasəti; münaqişə Moskva görüşü (bəyannaməsi) ilə deyil, ABŞ-ın sülh variantı ilə həll ediləcəkdir. (AR-in işğal olunan ərazilərinin azad edilməsi + DQ ermənilərinin təhlükəsizliyinə muxtariyyətdən artıq olmaycaq hüquqların verilməsi müstəvisində); Azərbaycanın ərazi bütövlüyünü formal da olsa özündə əks etdirməsi; yeni-köhnə "həll" variantı; Rusiyanın regionda mövcudluğunu sübut cəhdi və s.

Münaqişənin "yalnız sülhlə"nizamlanması öhdəliyindən qayğılanmanı

yersiz sayan bir sıra ekspertlər bu kimi halları (faktları) da diqqətdə saxlamağı məsləhət bilirlər: “dinc yolla həll” qənaəti atəşkəs sazişində (Bişkek protokolunda – V.1994) də nəzərdə tutulmuşdu; Bəyanatda ifadə olunan bu və digər fikirlər vaxtaşırı həmsədrlər tərəfindən də söylənilibdir; belə bir məqam AR-in Avropa Şurasına qəbulu zamanı (I.2001) imzalanan sənəddə də özünə yer alıbdır; 53 dövlətin dəstəklədiyi Lissabon sənədi (Kottinin bəyanatı) heç bir dəyişikliyə səbəb olmadığı və yerinə yetirilmədiyi kimi “Moskva Bəyannaməsi”nə də əhəmiyyət verilməməsi mümkündür.

**Ermənistanın hakimiyyət-siyasi dairələri, media və ekspertləri də “Moskva Bəyannaməsi”nə müxtəlif yönlərdən yanaşmışlar (5).** Öncə bunu qeyd edək ki, həmin sənədi imzalayan prezident S.Sarkisyan (sabiq dövlət başçısı R.Köçəryanla birlikdə **“Xocalı faciəsi”nin təşkilatçısı)** bir müddət sonra, yəni 2009-cu ilin fevralında “Böyük Ermənistan” uğrunda mübarizəsini davam etdirəcəyinə dair mövqeyini təkrarladı. Digər tərəfdən isə, o, Bəyannaməni imzalamaqla DQ məsələsində Azərbaycana güzəştə (?!-İ.M.) getməkdə təqsirləndirildi. “Vətən xaini” hesab edilən S.Sarkisyana “sui-qəsd şousu” da təşkil olundu. Bəzi ekspertlər Moskva danışıqlarından dərhal sonrakı davamlı atəşkəs pozulmasını — cəbhə zonasında erməni hərbi fəallaşmasını da bu kimi hallarla əlaqələndirirdilər.

**Ən çox da R.Köçəryan və ətrafının** (keçmiş baş diplomat V.Oskanyanla digərlərinin), habelə “Daşnaksütyun” partiyasının “Moskva Bəyannaməsi”ndən narazı olduqları bildirilir. Münaqişənin danışıqlar yolu ilə və Minsk Qrupu çərçivəsində həllinə üstünlük verməsini müsbət cəhət kimi səciyyələndirən V.Oskanyan bu sənədin Ermənistan üçün təhlükəli olduğunu da vurğulamışdır. O, “Svoboda” radiostansiyasına açıqlamasında (XI.2008) öz mövqeyini bunlarla izah etmişdir: güc tətbiqinin yolverilməzliyinin sənəddə birmənalı bildirilməməsi; münaqişənin beynəlxalq hüquq prinsipləri, əvvəllər qəbul edilən sənədlər və qərarlar əsasında nizamlanmasının vacibliyinin orada ifadə olunması və Azərbaycanın da bundan hökmən faydalanacağı.

**Daşnak liderlərindən K.Manoyan** “Qarabağ Bəyannaməsi”nin Rusiyanın regiondakı təsiri və rolunun gücləndirilməsinə yönəldiyini bəyan edibdir. O, DQ ətrafındakı ərazilərin qaytarılmasını da ehtiva edən “Madrid prinsipləri”nin bu Bəyannamədə nəzərə alınmasını xatırladaraq bölgə ermənilərinin mövqeyinə önəm verilməsini istəmişdi (Sözgəlişi, V.Kazimirov da “Novosti Armeniya” agentliyinə müsahibəsində özünün dəfələrlə söylədiyi bir fikri təkrarlamışdı: “...Bakı və ya İrəvan Dağlıq Qarabağın (yəni erməni əhalisinin-İ.M.) mövqeyini nəzərə almadan bu münaqişəni həll edə bilməz”.

**L.Ter-Petrosyan** sənədin bəzi müddəalarının Ermənistana təhlükə yaratdığını qeyd edərək onun “DQR”-in danışıqlar tərəfi kimi tanınması şanslarını heçə endirdiyini bildiribdir. O, Ermənistanın “A1+” telekanalına müsahibəsində (XI.2008) maraqlı açıqlamalar etmişdir: Bəyannamə sülh danışıqları prosesində vacib mərhələdir; Moskva görüşü prosesin başlanğıcıdır, hazırda Avropada davam etdirilir və dekabrda ABŞ-da yekunlaşacaqdır; danışıqlar Ru-

siyanın təşəbbüsü ilə başlasa da, nöqtəni Qərb qoyacaqdır (Sözgəlişi, Azərbaycanda V.Quluzadə də münaqişənin Amerika sülh variantından bəhs etmişdir).

**Moskva görüşü-danışıqları- bəyannaməsi Rusiyanın maraqları, onun Güney Qafqaza dair siyasətinin yeni çizgiləri, perspektivləri** və digər səpkilərdən də diqqəti çəkir. "Moskvanın başlatdığı münaqişə "Moskva Bəyannaməsi" ilə də (və ya ümumiyyətlə Moskvada da) qurtaracaqmı?" kimi tarixi-ritorik sualla Rusiyanın özünün siyasi dairələrində, elmi mərkəzlərində müxtəlif yönlərdən dəyərləndirilmişdir. Bir sıra analitiklər Bəyannaməni "prezidentlər + həmsədrlər formatı"nın D.Medvedyev tərəfindən pozulması və habelə sonrakı sülh prosesinin Rusiyanın nəzarəti altında gedəcəyinə dair ABŞ-a mesaj təki səciyyələndirirlər.

Bu zaman sənəddəki bir müddəaya, yəni danışıqların bundan sonra Rusiyanın və Minsk Qrupunun vasitəçiliyi ilə davam edəcəyinə istinad olunur. Rusiyalı həmsədr Y.Merzlyakov Bəyannaməni münaqişə tərəflərinin ilk dəfə olaraq imzaladıqları birgə, yəni problemin həllinə dair sonrakı danışıqlara təkan verə biləcək mühüm sənəd kimi qiymətləndirmişdir. Onun fikrincə, "indi danışıqların dalandan çıxması istiqamətində zəif də olsa ümid yaranıb. Rusiya xeyli vaxt ərzində Gürcüstanın belə bir sənədi imzalamasına nail ola bilmədi".

Rusiyalı bəzi ekspertlərin fikrincə, rəsmi Moskva **"həll reseptləri"**nin münaqişə tərəflərinə "kənar"dan (söhbət ABŞ və Aİ-dən gedir) sırınmasının əleyhinədir. Onlara görə, **özünü "kənar" saymayan Rusiy**a münaqişənin tərəflər üçün qarşılıqlı məqbul (?!-İ.M.) həllinə səy göstərir. Şərhçi-ekspert V.Yarixin isə BBC-yə müsahibəsində (XI.2008) olduqca önəmli bir məqamla bağlı bu cür açıqlama vermişdi: öncə xarici oyunçular (Rusiya, ABŞ, Avropa) öz aralarında bir razılığa gəlməli və sonra da vahid mövqe-fikirlərini münaqişə tərəflərinə bildirməlidirlər; "Üçlər"in hər biri sənin uduşun – mənim məğlubiyyətimdir" prinsipindən əl çəkməlidirlər (Bizcə, sülh prosesinin gedişi bunun əsla mümkün olmadığını təsdiqləyir).

Kremlə yaxınlığı ilə tanınan politoloq-deputat S.Markov Moskva danışıqlarının nəticələrindən bəhs edərkən iki məsələni önə çəkmişdir. O, "Moskva Bəyannaməsi"ndə "hüquqi baxımdan məcburedici beynəlxalq zəmanətlər"dən bəhs olunduğu qənaətindədir (Azərbaycanda da bu fikri təsdiqləyən ekspertlər az deyildir). Bu qənaət sülh sazişinin təkcə Ermənistanla Azərbaycan arasında deyil, Rusiyanın beynəlxalq qarantlığı ilə Türkiyə, Aİ, ATƏT, BMT və digərlərinin də imzalamasıyla bağlanacağı anlamına gəlir. Adıçəkilən politoloq Türkiyənin də "Qarabağ razılaşması"nın qarantı ola biləcəyini mümkün sayırdı (Bunu Moskvanın Ankaranı öz tərəfinə çəkmək planları ilə əlaqələndirən mövqeləri də bir kənara qoymaq olmaz).

S.Markov habelə **"Moskva Bəyannaməsi" müharibəni mümkünsüz edir" müddəası**nın da müəllifidir. ABŞ-ın regionda fəallaşması, Azərbaycanın iqtisadi inkişafı və s. müharibə təhlükəsini artıran amillər kimi qeyd edən politoloq münaqişə tərəflərinin Bəyannamədəki "bir-birinə qarşı gücdən istifadə etməmək" öhdəliyinin üzərində dayanmağı lazım bilir (Yenə də sözgəlişi, bu

məqam 2008-ci ilin sonu-2009-cu ilin əvvəlində AR ilə həmsədrlər arasında müəyyən gərginlik yaratdı.

AR-in BMT-dəki Daimi mümayəndəsi A.Mehdiyevin təşkilatın Baş katibinə 2008-ci ilin dekabrında ünvanladığı sənədlər (Ermənistanın Azərbaycana təcavüzünün hərbi nəticələri barədə hesabat və ona əlavə) həmsədrlərin bəyanatı ilə (19.II.2009) cavablandırıldı. Daimi nümayəndəliyimizin bu sənədlərini Azərbaycanın münaqişənin sülh yolu ilə nizamlanmasından müharibə vasitəsilə həllinə meyllənməsi istəyi kimi səciyyələndirən həmsədrlərin bəyanatında açıq mətnlə bildirilirdi: "...Qarabağ problemi hərbi yolla həll edilə bilməz". Vasitəçilərdən biri (M.Brayza) öz bəyanatlarını şərh edərkən xəbərdarlıq ahəngli belə bir fikri də vurğulamışdı ki, "...tərəflər Minsk Qru-punun apardığı sülh prosesinin davam etməli olduğunu və davam edəcəyini anlasınlar".

Əslində konkret detalları özündə əks etdirməyən "Moskva Bəyannaməsi" ABŞ-ın Cənubi Qafqaz siyasəti və Rusiya ilə münasibətlərinin çağdaş durumu, perspektivləri cəhətdən də müəyyən rəylər doğurmuşdur (6, 54-55). M.Brayzanın sənədə dair dəyərləndirməsində özünə yer alan ziddiyyətli fikirlərdən bunlar diqqəti daha çox cəlb edir: "sürpriz, həmsədrlərə prezidentlərin dəstəyi, çox mühüm hadisə, uğur"; "imzalanan Bəyannamədə ABŞ və Fransa iştirak etməyib"; "Rusiya Bəyannaməni hazırlamağa kömək etdi, lakin bu nəticə bütün həmsədrlərin səyləri ilə mümkün olub" və s.

Moskva görüşünün yekunları ilə bağlı dünyanın tanınmış elmi mərkəzlərində və analitik-ekspertləri arasında bir məsələ ətrafında kəskin fikir ayrılıqları mövcuddur. Əksəriyyət ABŞ-ın danışıqlar prosesindən kənarda qalması və təşəbbüsün Rusiyaya keçməsi qənaətindədir (ancaq az öncə qeyd etdiyimiz kimi, V.Quluzadə, L.Ter-Petrosyan və başqaları isə münaqişənin həllinə nöqtənin məhz Qərbdə (ABŞ-da) qoyulacağını bildirirlər). Elə rusiyalı politoloq S.Markov da Moskva danışıqları və Bəyannaməsinin xarici oyunçuların, xüsusilə də ABŞ-ın Güney Qafqazdakı proseslərə təsir imkanlarını məhdudlaşdırdığını qeyd etmişdir.

Bəzi analitiklərsə Rusiyanın Gürcüstana hərbi müdaxiləsindən sonra ABŞ-ın onu "Dağlıq Qarabağ münaqişəsi"nin tənzimlənməsinə dair sülh prosesindən kənarlaşdırmağa uğursuz cəhd göstərdiyini yazırlar. Buna dəlil kimi də amerikalı həmsədrin o vaxt İrəvanla Bakıya təklikdə səfər etməsini və məlum münaqişənin nizamlanmasındakı ABŞ-Rusiya əməkdaşlığını sual altında qoyan açıqlama verməsini göstərirlər. Amma hələlik əksinə oldu və ABŞ Moskva danışıqlarını qapı arxasından izləmək məcburiyyətində qaldı. Buna baxmayaraq, ABŞ Dövlət Departamenti öz mətbuat xidmətinin rəsmisi M.Tonerin "diplomatik dili" ilə Moskvada tərəflərin danışıqları davam etdirmək öhdəliklərindən məmnun olduğunu bildirdi.

Müxtəlif yönlərdən dəyərləndirilən Moskva danışıqları və Bəyannaməsi bəzi beynəlxalq diplomatik çevrələrdə yeni sənədin imzalanmasına da ümidlər yaratdı. Belə ki, o vaxt ATƏT-ə sədrlik edən Finlandiya XİN-i A.Stabb təşkilata üzv dövlətlərin Xarici İşlər nazirlərinin Helsinkidə keçirilən illik toplantısı

(4.XII.2008) ərəfəsində "Röyter" agentliyinə müsahibəsində Ermənistanla Azərbaycanın yeni bəyannamə imzalamalarının mümkünsüzlüyündən bəhs etmişdi (Ancaq bu fikir-iddia rəsmi İrəvan tərəfindən dərhal təkzib olunmuşdu).

"Dağlıq Qarabağ problemi" ətrafında işlərin yaxşı getdiyini (?!-İ.M.), irəliləyişə nail olunduğunu qeyd edən ATƏT sədri sülh prosesindəki bu mərhələni "dondurulmuş münaqişədən həll edilməkdə olan münaqişəyə keçid" kimi səciyyələndirmişdir. A.Stabb habelə Rusiyanın Gürcüstana hərbi təcavüzünün regiondakı proseslərə öz damğasını vurduğuna toxunaraq ATƏT-in "dövlətlərin ərazi bütövlüyü", "münaqişələrin həllində gücdən istifadənin yolverilməzliyi" və digər prinsiplərindən əsla vaz keçilməyəcəyini söyləmişdi.

## ƏDƏBİYYAT


1. www.mfa.gov.az
2. Nağı A. Qarabağ müharibəsi: qısa tarix. Bakı: Ağalarov Anar, 2014, 120 s.
3. "Azərbaycan" qəz., Bakı: 2008, 4 noyabr.
4. http:// president.az/articles/12264
5. Həmsədrin "Twitter"i: bir səhvin qiyməti//www.newtimes.az/az/regions/organisations/2642
6. Кулиев Г. Конфликт в геополитическом контексте / Карабах: вчера, сегодня, завтра, ч.I. Баку: Бизнесмен ГабибовНамиг, 2009, с.51-57.


## "МОСКОВСКАЯ ДЕКЛАРАЦИЯ": ВЗГЛЯДЫ И ПОЗИЦИИ


**ИСМАИЛ МУСА**


**РЕЗЮМЕ**


В статье исследуется "Московская Декларация", подписанная президентами Азербайджана, Армении и России в связи с решением Нагорно Карабахского конфликта. В первую очередь, раскрываются главные моменты декларации. Основное внимание уделено сравнительному анализу научно-политических взглядов и позиций, связанных с этим документом.



**Ключевые слова**: "Московская Декларация", Нагорно Карабахский конфликт, решение проблемы, трехсторонние обсуждения, научные подходы и позиции.


## "MOSCOW DECLARATION": VIEWS AND POSITIONS


**I.M.MUSA**


**SUMMARY**


The article studies "Moscow Declaration", signed in November 2008, about the resolution of Nagorno-Karabakh conflict by the presidents of Azerbaijan, Armenia and Russia. The main points of the declaration are primarily explained. The main attention is focused on the comparative analysis of the scientific and political views and positions about the document.



**Key words:** "Moscow Declaration", Nagorno-Karabakh conflict, problem solution, trilateral discussions, scientific approaches and assessments.